**MƏDƏNİYYƏT DÜNYASI**
Elmi-nəzəri məcmuə
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,
XXII buraxılış, Bakı, 2011

**МИР КУЛЬТУРЫ**
Научно-теоретический сборник
Азербайджанский Государственный Университет Культуры и Искусств,
XXII выпуск, Баку, 2011

**THE WORLD OF CULTURE**
Scientific-theoretical bulletin
Azerbaijan State University of Culture and Art, XXII edition, Baku, 2011

**UOT 745/749**

***Vidadi Muradov***
***Bakı Avrasiya Universitetinin professoru***
***"AZƏR-İLMƏ" MMC-nin baş direktoru***
***Az 1073, Bakı, Akademik Həsən Əliyev küç., 135 A***
***Email:azerilme@azdata.net***

# BAKI XALÇALARININ YARADICILIQ XÜSUSİYYƏTLƏRİ

**Xülasə**: Professor Vidadi Muradov "Bakı xalçalarının yaradıcılıq xüsusiyyətləri" adlı məqaləsində Bakı və Abşeronda toxunmuş xalçaların bədii və yaradıcılıq xüsusiyyətləri araşdırılır. Bu qrupa aid olan xalçaların keçdiyi inkişaf yoluna nəzər salan müəllif onların boyama, toxunma mərhələlərini təhlil edərək əsas xüsusiyyətləri göstərir. Azərbaycan xalçalarının tərkib hissəsi kimi özünə böyük yer alan Bakı xalçalarının səciyyəvi cəhətləri sənətşünaslar tərəfindən az öyrənilən mövzulardan olduğundan məqalənin elmi əhəmiyyəti və yeniliyi xüsusi ilə qeyd edilməlidir.

**Açar sözlər**: xalça, ilmə, palaz, zili, naxiş, kompozisiya.

Azərbaycan xalçalarının Bakı qrupu coğrafi baxımdan Xəzər dənizinin qərb sahilini – Bakı-Abşeron bölgəsini əhatə edir. Ona görə də Azərbaycan xalçalarının bu qrupu şərti olaraq, Bakı-Abşeron qrupu da adlandırıla bilər. Bakı tarixən dünya ticarət yollarının üstündə yerləşirdi. Bu yol ilə tacirlər və səyyahlar şimaldan-cənuba, şərqdən-qərbə - Qara dəniz sahilindəki ölkələrə, İrana, Çinə, Hindistana və s. yerlərə hərəkət etmişlər. Bakıda memarlıq sənəti, "güləbətin" üslublu zərif tikmələr, nəfis milli geyimlər, əlvan tirmə şallar, soyuq silahlar, "şəbəkə", "mina", "qarasavad" üsullu zərgərlik nümunələri ilə yanaşı göz oxşayan xalçalar da toxunmuşdur. Bakı xalça məktəbi öz ənənələri, incə bədii üslublu naxışları, həzin rəng ahəngdarlığı ilə fərqlənmişdir.

Xalça istehsalı ilə Bakıda əsasən Novxanı, Nardaran, Xilə (Əmircan), Bülbülə, Suraxanı, Görədil, Fatmayı, Qala kəndlərində, habelə Abşeronun hüdudlarından kənarda – Xızı bölgəsinin Xızı, Gədi, Giləzi və Fındığan kəndlərində məşğul olmuşlar.

Xalçaçılıq əsasən bol suyun və qoyunçuluğun geniş yayıldığı ərazilərdə inkişaf etmişdir. Şamaxıda, Qubada, Şəkidə olduğu kimi, Abşeronda da ən çox "qala" qoyun cinsi üstünlük təşkil etmişdir. Bakı xalçalarında eyni zamanda quzu yunundan da istifadə edilmişdir. Yumşaq, parlaq quzu yunundan toxunan xalçalar irili-xırdalı nəfis elementləri, bədii tərtibatından asılı olmayaraq zərifliyi və incəliyi ilə seçilmişdir. Bu xalçaların güclü bədii təsir qüvvəsinə malik olması səbəblərindən biri də mükəmməl

texniki göstəriciləri, xüsusilə yüksək ilmə sıxlığı nəticəsində yaranan naxışların dəqiq təsviri ilə bağlıdır. İlmə sıxlığı 38x38-sm-dən başlayaraq 40x40, 42x42, 38x45, 45x45 sm aralarında olan kiçik ölçülü “Novxanı”, “Suraxanı” və “Fatmayı” xalçaları, eyni zamanda 130x350 sm, 120x300 sm ölçülü nisbətən iri “Görədil”, “Fatmayı”, “Xilə-buta”, “Xilə-Əfşan” kompozisiyalı xalçalar da istehsal edilmişdir.

Azərbaycanın hər bir xalçaçılıq qrupunda olduğu kimi, Abşeronda da xalçaların öz toxunma, emal üsulları olmuşdur. Bununla yanaşı, bu bölgənin əhalisi tələbata uyğun olaraq Xəzər sahilində, dəniz suyu və sabunu əvəz edən gilabı ilə xaçaların yuyulmasına daha çox üstünlük vermişdir. Əsasən Qala kəndində əldə edilən gilabı ilə yuyulan xalçaların xovu daha parlaq və yumşaq görünürdü.

Abşeron torpağı dağ-mədən yataqlarının məskəni kimi də şöhrət qazanmışdır. Dəvə karvanı ilə buradan tuluqlarda neft, torbalarda duz, gilabı və başqa dağ-mədən məhsulları xarici ölkələrə daşınmaqla yanaşı, yerli əhali də onlardan istifadə edirdi. XIX əsrin 30-cu illərində Qalanın duz gölündən 30 min xalvaradək duz toplanmışdır. İllər boyu Masazır gölündən toplanan duzdan da Abşeronda ipliklərin boyanılmasında əvəzedilməz bərkidici maddə kimi istifadə edilmişdir.

Bir qayda olaraq öz həzin palitrasını Abşeronun spesifik təbiətindən – mavi Xəzərdən, kəhrəba qumlardan, bal rəngli salxımlardan, qızılı çalarlı zəfərandan almış bu xalçalardakı özünəməxsus bədiilik boyakarlıq əsərlərində olduğu kimi sakit rənglərin, həzin yarım tonların üzərində qurulmuşdur. Bakı xalçalarında üstünlük təşkil edən rəng harmoniyası əksər hallarda memarlıqda istifadə edilən “kaşı” bəzək üslubunun mavi, sürməyi rənglərinə və şəkəri, sumağı tonlarına uyğun seçilirdi.

Abşeron xalçalarını bəzəyən sokral və ezoterik işarələr sistemi, zoomorf təsvirlər, nəbati elementlər bəşəri məzmunlu atributlardan olub, əbədi dünyanın dərk edilməsinin sirlərini, xalqımızın erkən dini-mifoloji və əxlaqi təsəvvürlərini estetik ahəngdarlıq qanunları vasitəsilə əks etdirir. Bu qrupa məxsus çeşnilər tarix boyu xalq sənətkarları tərəfindən yaşadılmış və yeni təsvir üslublarının yaranmasına zəmin yaratmışdır.

Suraxanı Atəşgah məbədində yanar alovun üzərində ucalmış svastika nişanı, günəşin təsviri bu yerlərin qədim sakinlərinin hələ keçmiş zamanlardan oda, alova sitayiş etmələrini sübut edir. “Suraxanı” xalçası üzərində təsvir edilmiş göl – tək, bölünməz enerji mənbəyi və ondan ətrafa paylanan şüalar insanların ilk inancları ilə bağlıdır.

Bakının Əmircan kəndində toxunan “Xilə-buta” xalçalarındakı klassik “buta”, “Xilə-Əfşan” xalçasına məxsus “sacayaq” elementləri də atəşpərəstliklə bağlı olub odu, müqəddəs ocağı, mifoloji quşlar – nur, işıq mənbəyinin simvolu olub Tanrı ilə yer arasında əlaqə yaradan ilahi varlığı, müxtəlif üçbucaq formalı asmalar isə göz və nəzər qaytarılması üçün inamlarla əlaqəli yozulan elementlərdəndirlər. “Novxanı”, “Fatmayı”, “Bakı”, “Suraxanı” xalçalarının bədii strukturlarının əsasını təşkil edən pilləli və ya altı bucaqlı, səkkiz bucaqlı “göllər” kainat, fəza cisimləri ilə bağlıdır. Onlar da vahid enerji mənbəyini tərənnüm edirlər. Bu göllərin içərisini bəzəyən sxematik əyri və sınıq xətli işarələr arxaik inancların bədiiləşmiş dili ilə tərənnüm edilən müsbət enerjinin daşıyıcılarıdırlar.

Bir sıra xalça məktəblərində olduğu kimi Bakı xalçalarının da çoxu bir qayda olaraq toxunduğu ərazinin adını daşıyırlar. Bəzi hallarda isə toxunduğu məkanı bildirən yer adlarının yanında kompozisiyanın quruluşunu və ya əsas elementləri anladan ifadələrdən də istifadə edilir. “Xilə-Əfşan” xalçasında Xilə - Əmircan kəndinin adı olduğu halda, Əfşan – səpələnən, paylanan anlamında işlənir. Yaxud, “Xilə-buta” xalçasında ardıcıl olaraq düzülmüş elementi “buta” təşkil edir.

Bakı xalçaları üçün (Xilə-Əfşan) nəbati elementlər də xarakterikdir. Palmett, tənək yarpaqları, islimi elementləri ənənəyə görə xalça üzərində bərabər yerləşdirilir. Bəzən "islimi" Avropada "arabesk" deyə adlandırılsa da bu naxışın mənası yeni, gənc pöhrə, cücərti deməkdir. Yəni sonsuza doğru davam edə biləcək cücərtiyə bənzətmədir. Digər çiçəklər və yarpaqlar isə cənnətə olan işarə, cənnətin rəmzi sayılır.

Bakı xalçalarının haşiyə zolaqlarını bəzəyən naxışları arasında ən geniş yayılmış "kufi"dir. "Kufi" haşiyə zolağı özünəməxsus quruluşa malikdir. Adətən ana haşiyəni təşkil edən "kufi"nin tarixi İslamın təsviri sənətə olan təsiri ilə əlaqələndirilir. Düzbucaq formalı qəfəslər mavi və ya sumağı yerlikli yelən zolağı üzərində cərgə ilə ardıcıl toxunur. Bu qəfəslər də öz növbəsində mürəkkəb stilizə edilmiş naxışlarla bəzədilir. Ümumilikdə ərəb kalliqrafik yazı tərzini xatırladan bu zolaq zəncirə xarakteri daşıyır. Mənşəyi müqəddəs dini yazılar və ya surələrdən alınan bu haşiyə zolağına memarlıqda da rast gəlmək olar. Sonrakı əsrlərdə bu yazılar bir çox quruluş dəyişikliyinə məruz qalmışdır. Xalçalar üzərində də bu növ haşiyə zolağına Bakı, Şirvan və Quba toxuculuq qruplarında bu gün tez-tez rast gəlinir.

Bakı xalça məktəbində toxunan "Palaz", "Kilim", "Zili" xovsuz xalçalarını bəzəyən dolanbac, düz xətt, romb, qarmaqlı və başqa həndəsi formalı elementlər "kilimgülü", ağac, əfsanəvi quş və heyvan motivləri fərdi təsvir üslubları ilə seçilirlər. Bu naxışlar bütövlükdə əbədiyyətlə bağlı hisslər, duyğular dünyasının xalılar üzərində bədii inikasıdır.

Öz zəngin naxışlar sistemi ilə tanınan və əsasən Abşeronun Qobu kəndində toxunan "Çiyi palaz" xovsuz xalçası yalnız Bakı toxucuları arasında peşəkarlıqla icra edilmişdir. Alabəzək zolaqlar üzərində toxunan sınıq xətlər, romblar, xaçabənzər və çarpaz "X" elementlər Qobu palazları üçün xarakterikdir. Palaz xovsuz xalçaların ən ibtidai növüdür. Bir qayda olaraq bu xalçalarda ara sahə haşiyə zolağı ilə əhatə edilmir. Palazlardan Abşeron əhalisi məişətdə geniş istifadə edir. Belə ki, döşənək kimi yer və taxt üstünə, kürsüyə salınan palazlar əvəzolunmazdır.

Palaz xovsuz xalçasını üfüqi istiqamətdə toxunan mavi, sürməyi, qırmızı, sarı, yaşıl rəngli enli və ensiz zolaqlar bəzəyir. Bu enli zolaqlar üzərində toxunan bəzək elementləri xalça üzərində toxunmazdan daha öncə neçə min il əvvəl qaya, saxsı, metal məmulatlarda həkk edilmiş, əcdadlarımızın qədim təsəvvürləri ilə bağlı olmuşdur.

Zili xovsuz xalçaların ən geniş yayılmış növüdür. Azərbaycanın digər xalça məktəblərində də zili istehsal edilmişdir, lakin Bakı məktəbində, əsasən Xızı bölgəsində toxunan zililər özəl kompozisiya quruluşuna və naxışlara malikdir. Ara sahə böyük damalar şəklində qəfəslərə bölünür və kompozisiya yelənlə əhatə edilir. Zili üzərində həyat ağacı və həndəsi naxışlar büsbütün abstrakt zoomorf təsvirlərlə toxunur. İki başlı əfsanəvi quşlardan ibarət motivlərdə ənənəyə görə bir bədən toxunur. Şərq xalqları arasında quş ilahi rəmzi məna daşıyır. Bu motiv mistik dünyanın elçisi, ruhları əbədi həyata qovuşduran rəmzdir.

Quş simvolu, həmçinin də türk xalqlarının simvolu sayılır. İyirmi dörd boydan ibarət oğuzların hər birinin bayquşdan – qartaladək müxtəlif quş obrazları şəklində damğaları olmuşdur.

Zili xalçası üzərində toxunan quşlar isə bir qayda olaraq bir bədən iki başdan ibarət olurlar. Onlar hər iki dünyanın təmsilçisi, dualist fikirlərin rəmzi sayılır. Eyni müqəddəs mövzu İslam dinində də mövcud idi. Bu dövrdə quş cənnətin rəmzi sayılırdı. Yenə də ruhun bədəndən çıxması quşa bənzədilirdi.

Zili həmçinin çeşidli konstruktiv quruluşa malik olan ağac motivləri ilə də zəngindir. Ağac çox qədim zamanlardan həyatın əbədiliyini təmsil etmişdir. Ağacın kökü qaranlıq məkan – insanın dünyaya gəlişini, gövdəsi – onun ömür sürdüyü zaman

kəsiyi, budaqları isə insanın dünyanı tərk edib əbədiyyətə qovuşmasına nişanədir. Zililər çox zaman "buta" elementləri ilə də bəzədilir. Qədim tarixə malik olan "buta" naxışı Abşeron xalça məktəbinin bədii ənənələrini bir çox xalçalarda təmsil edir. Beləliklə, zili büsbütün yaranış və əbədiyyət, mistik və duaistik fikirlərlə bağlı sirli kompozisiyaya malikdir. Bu müqəddəs məkanı əhatə edən haşiyə zolağının isə qoruyucu əhəmiyyəti vardır. O pak, müqəddəs məkanı bütün bəd qüvvələrdən və nəzərdən qoruyur.

Bakı kilimləri isə öz isti koloriti, yununun zərif emalı və toxunuşu ilə seçilir. Üfüqi zolaqlar üzərində toxunan həndəsiləşdirilmiş "kilimgülü" elementi çox məşhurdur. Bu növ xovsuz xalçadan döşənək və pərdə kimi istifadə edilmişdir. Üzərindəki kiçik məsamələrdən içəri süzülən həzin işıq kilimdən pərdə kimi istifadəni əvəzsiz edirdi.

Abşeron məişətində geniş yayılmış çul, xurcun, heybə, duz torbası, xaral, ləmi qabağı, məfrəş kimi xalça məmulatları da cecim və kilim xovsuz xalçalarının texnoloji üslubundadır. Tünd-sumağı, mavi, sürməyi, şəkəri, açıq-qəhvəyi rəng çalarları və incə toxunuş, zərif yun bu əşyaları digər bölgələrə məxsus nümunələrdən fərqləndirir.

Dolğun tarixi köklərə bağlı olan Abşeron xalça naxışları ilə bu məktəbə xas isti rəng ahəngi arasında olan vəhdət toxucuların qədimdən formalaşmış yüksək bədii estetik duyumuna sübutdur.

**Ədəbiyyat:**


*Azərbaycan dilində*

1. Azərbaycan incəsənəti. Bakı: İşıq, 1992, 344 s.
2. Əfəndiyev R. Azərbaycan xalq sənəti (parçalar, tikmələr, xalçalar). Bakı, 1971, 78 s.
3. Əfəndiyev R. Azərbaycan dekorativ – tətbiqi sənətləri (orta əsrlər) (Azərbaycan və rus dillərində). Bakı, 1976
4. Əfəndiyev R. Azərbaycanın bədii sənətkarlığı dünya muzeylərində (Azərbaycan, rus və ingilis dillərində). Bakı, 1980
5. Qasımov X. Azərbaycan mədəniyyəti (XVI-XVII əsrlər). Bakı: Nurlan, 2002, 1701 s.
6. Qasımov X. Orta əsrlərdə Azərbaycan mədəniyyəti. Bakı: Aspoliqraf, 2008, 448 s.
7. Quliyev Q. Azərbaycanda toxuculuq sənəti haqqında (XIII-XVIII əsrlər) // Azərbaycan SSR EA-nın Xəbərləri. İctimai elmlər ser., 1961, №1, s.56-57
8. Muradov V. Azərbaycan xalçaları. Bakı, 2008
9. Muradov V. Azərbaycan xalçaları. Qarabağ qrupu. Bakı: Elm, 2010, 272 s. (Azərbaycan və rus dillərində)
10. Mustafayev C.M. Xanlıqlar dövründə Azərbaycan sənətkarlığı. Bakı: Elm, 2009, 272 s.
11. Müciri C. Azərbaycan xalçaçılığı. Bakı, 1977, 99 s.
12. Müciri C. Azərbaycan xalça toxuculuğunun texnologiyası. Bakı: Maarif, 1987, 152 s. (azərbaycan və rus dillərində).

*Türk dilində*

13. Serare Yetkin. Türk Halı Sanatı. Ankara, 1991, 225 s.
14. İngilis dilində
15. Azerbaijan Carpets: Karabakh group. Project Manager Vidadi Muradov. Baku, 2011
16. "Azer-ilme" CO LTD // Halı. Carpet, Textile & Islamic art. 2007, Spring, Issue 151
17. Azerbaijan Nakhichevan Carpets // Halı. Carpet, Textile & Islamic art. 2007, autumn, Issue 153
18. Charles Grant Ellis. Early Czucasian Rugs. The textile museum fiftietn anniversary 1925-1975. Washington, 2008, 112 p.
19. Franses Jack. The ardebil carpet. Heintex, April, 1984, p.60-68
20. E.Heintich Kirchheim. Orient Stars Eine. Teppichsammlung. Stuttagart, 1993, 87 p.
21. Kopachkova R. Fraqment of a Safavid Kilim in Praque // Oriental Carpet and Textile Studies, v.3. №2. London, 1989, p.117-119
22. Magical Knots // Halı. Carpet, Textile and Islamic art. January-february, 2007, Issue 150
23. mc.Millan. Islamic carpets. New York, 1965, 152 p.

*Rus dilində*

24. Аббасов А. Производство и торговля азербайджанскими коврами в конце XIX – нач. XX вв. АКД. Тбилиси, 1980
25. Абдуллаева Н.А. Ковровое искусство Азербайджана. Баку: Элм, 1971, 150 с.
26. Алиева А. Ворсовые ковры Азербайджана XIX – начала XX века. Баку: Элм, 1987, 144 с.
27. Алиева С.М. Нахичеванские ковры. Баку: Ишыг, 1988, 27 с., с илл.
28. Алиева К.М. Безворсовые ковры Азербайджана. Баку: Ишыг, 1988, 144 с., с илл.
29. Алиев К. Тебризская ковровая школа XVI-XVII вв. и ее связь с ковровым искусством Ближнего и Среднего Востока. Баку: Элм, 1999, 194 с.
30. Бретаницкий Л.С., Веймарн Б.В. Искусство Азербайджана в IV-XVIII веках. М., 1976
31. Гейдаров М.Х. Города и городское ремесло Азербайджана XIII-XVII век. Ремесло и ремесленного центра. Баку: Элм, 1982, 281 с.
32. Керимов К.Д. К изучению азербайджанского коврового искуcттво // Изв. АН Азерб. ССР, 1954, №7, с.121-145
33. Керимов Л. Азербайджанский ковер. т.1. Баку – Л., 1961; т.II. Баку, 1983; т.III. Баку, 1983
34. Керимов Л. Азербайджанские ковры в музее Виктории и Альберта в Лондоне // К международный симпозиум по искусству восточных кавров. Баку, 1983, 61 с., с илл..
35. Керимов Л. Искусство ковроделия // Материалы международного симпозиума по искусству восточных ковров. Баку: Элм, 1988, с.155-165
36. Кулиев М.М. Ковроделие в Азербайджане (Ист. этн. исследования по материалам северо-восточных районов Азербайджана). АКД. Баку, 1969

**Видади Мурадов**

**Особенности создания бакинских ковров**
**Резюме**

В своей статье под названием «Особенности создания бакинских ковров» профессор Видади Мурадов анализирует художественные особенности и детали создания сотканных в Баку и на Абшероне ковров. Рассматривая путь развития ковров данной группы, автор анализирует этапы их покраски, тканья, отмечает их главные особенности.

**Ключевые слова**: ковер, петля, палаз, зили, узор, композиция

**Vidadi Muradov**

**Creating features of Baku carpets**
**Summary**

Professor Vidadi Muradov reseraches artistic and creating features of the carpets woven in Baku and Absheron in his article “Creating features of Baku carpets”.

The author who dealt with the path of development of Azerbaijan carpets belonging to this group shows their main features by analysing their dying and weaving stages.

Characteristic features of Baku carpets taking great place as a component of Azerbaijan carpets are one of the subjects less studied by the art critics, therefore the scientific importance and novelty of the article should be noted especially.

**Keywords:** carpet, stitch, palaz, zili, pattern, composition.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 12.10.2011**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 27.10.2011**
**Məqalənin çapa qəbul olunma tarixi: 10.11.2011**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:** sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Sevil Sadıxova
**ADMİU-nun Elmi Şurasının 20 dekabr 2011-ci il, 4 saylı qərarı ilə çap olunur.**